Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# Bədən tərbiyəsi və idmanın maliyyələşdirilməsinin əsas modelləri

*Qasımov Ə.S., Bacarani K.Z., İsrafilov V.*[1]

[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** model, maliyyə, diversifikasiya, büdcə, vergilər

Ümumi maliyənin durumunda meydana çıxan bütün qanunauyğunluqlar bədən tərbiyəsi təşkilatlarının da maliyyə fəaliyyətində müşahidə olunur.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı, dövlət proqramının qəbul olunması müstəqil dövlətimizin hərtərəfli tərəqqisi üçün möhkəm zəmin yaratmışdır. Bu sahədə vacib məsələlərdən biri ölkəmizdə mövcud olan təbii və iqtisadi potensialdan istifadə etməklə bədən tərbiyəsi və idmanın sürətli inkişafına nail olmaqdan ibarətdir.

Bədən tərbiyəsi və idmana xərclənən maliyyə vasaitinin həcmi, bölgüsü və istifadəsi milli gəlirinin, əhalinin gəlirinin həcmi və təyinatından, cəmiyyətin istehsalat gücündən, eləcədə biləvasitə bədən tərbiyəsi və idmanın inkişaf səviyyəsindən asılıdır.

Azərbaycan Respublikasının "Bədən Tərbiyəsi və İdman haqqında" 2009-cu il Qanununda bədən tərbiyəsi və idman əsasən dövlət büdcəsindən ayrılan vəsaitdən, idman tədbirlərinin televizya vasitəsilə translyasiyasından, tamaşa xarakterli bədən tərbiyəsi və idman tədbirlərinin keçirilməsindən daxil olan vəsaitdən, fiziki və hüquqi şəxslərin ianələrindən və digər mənbələrdən maliyyələşdirilməsi qeyd edilir.[ 5]

Dünyada və ölkəmizdə kütləvi bədən tərbiyəsi və idman tədbirləri əsasən aşağıdakı mənbələrdən maliyyələşir: dövlət büdcəsindən ayrılmış maliyyə vasaitləri; özəl sektorun investisiyaları əsasında; bundan əlavə Həmkərlar ittifaqları, digər ictimai təşkilatların və bələdiyyələrin ayırdıqları vəsaitdən.

Kütləvi bədən tərbiyəsi və yüksək idman nailiyyətlərinin müxtəlif ölkələrdə maliyələşdirilməsi sxemləri müxtəlif formada həyata keçirilir.

Bir sıra ölkələr Rusiya, Çin və Avropa modelini əsas götürürlər. Adı çəkilən ölkələrin maliyyələşdirilməsində dövlət büdcəsi əsas rol oynayır.[ 4, səh. 42-46]

Ümumiyyətlə uşaq-gənclər idman və sağlamlıq bədən tərbiyəsi işləri yerli büdcələr tərəfindən maliyələşdirilir.

Dünyada lider olan Amerika idmanı heç də dövlət büdcəsindən maliyyə dəstəyi almağa səy göstərmir. Bu ölkədə bədən tərbiyəsi və idmana vergi güzəştləri mövcuddur.

ABŞ-ın Milli Olimpiya Komitəsi 1950-ci ildən Konqres tərəfindən vergidən azad edilmişdir. Həmçinin burada idman təşkilatlarına avadanlıq və ləvazimatın daxil olması həmin təşkilatları vergidən azad etmişdir.

Məlumdur ki, bu cür münasibət ölkədə kütləvi bədən tərbiyəsinə axına, o cümlədən yüksək dərəcəli idmançıların yetişməsinə gətirib çıxardır.Avropada isə hər iki modeldən istifadə olunur və burada dövlət daha çox bu sahəyə



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

maliyyə vəsaiti xərcləyir.Avropa modeli qarışıq maliyyə prinsipləri əsasında qurulub ki, bu zanam dövlətin payı idman sahəsinin maliyyələşməsinin böyük bir hissəsini təşkil edir.

Asiya və Latın Amerikası dövlətlərinin bələdiyyə və yerli büdcə təşkilatları bədən tərbiyəsi və idmana eyni miqdarda - 3% xərcləyir. Yüksək idman nailiyyətlərinə isə dövlətlərin maliyyə qoyuluşu bir-birlərindən nəzərəçarpacaq dərəcədə fərqli olur.

Ümumiyyətlə müxtəlif ölkələrdə Olimpiya yığma komandasına maliyyə vəsaiti müxtəlif formada ödənilir. Almaniya, Fransa dövlət büdcəsindən, ABŞ və Böyük Britaniya idmançıları isə özəl şirkətlərin və firmaların ayırdığı maliyyə vəsaitindən, İtaliya yığma komandası isə lotoreya, futbol oyunlarından və totalizatorlarından gələn gəlirdən maliyyələşdirilir. Avstriya, Yunanıstan, Danimarka, İrlandiya, Kanada, Portuqaliya, Finlandiya və s. dövlətlər də yuxarıdakı metodlardan istifadə edirlər.

ABŞ-da 70-dən çox milli federasiya fəaliyyət göstərir. Onların büdcəsi üzvlük haqlarından, xeyriyyə ianələrindən, yarışlarda iştirak üçün ödənilən haqlardan, idman geyimləri, atributlar, avadanlıqlar və ləvazimatların satışından formalaşır.

Bu ölkənin uşaq-gənclər və Olimpiya ehtiyatlarının hazırlığı, 18 yaşadək uşaqların, yeniyetmələrin və gənclərin idmanla məşğul olmaları üçün çəkilən xərclər isə valideylər tərəfindən ödənilir.

20 yaşında olan bir çox idmançılar (tələbələr) üçün əsas məşq yerlərini kolleclər və universitetlər təşkil edir.Ümüdverici idmançılar meydana gəldikdə onların gələcək inkişafını təmin etmək üçün idman növləri üzrə Federasiyalar, Milli İdman Komitələri və müxtəlif sponsorlar bu işə qoşulurlar.

Bir çox MOK-dan fərqli olaraq ABŞ Milli Olimpiya Komitəsi hec də hər zaman dövlətdən maliyyə dəstəyi almır. Onların əsas maliyyə dəstəyi işğuzar fiziki və hüquqi şəxslər tərəfindən göstərilir.Sponsor köməyindən başqa, əldə olunan digər gəlirlər, MOK lisenziyalaşdırılan mallardan, öz rəmzlərinin satışından və Olimpiya oyunları üçün Amerika fondundan alır.

İnvestisiya qoyuluşundan gələn gəlirin 50 %-i bu fond tərəfindən gələcəkdə ölkədə idmanın inkişafı məqsədilə ABŞ-ın MOK-na və təşkilatlara “qrant” şəkilində verir.

Böyük Britaniyaya gəldikdə-burada dövlət məktəblərində idman ilə məşğul olmaq üçün çəkilən xərclər dövlət tərəfindən ödənilir.Bu ölkədə ən əhəmiyyətli təşkilatlar Britaniyanın Olimpiya Assosiasiyası, “Birləşmiş Krallığın idmanı”, “İngiltərə idmanı”, “Şotlandiya idmanı”, “Uelsin İdman Şurası”, “İdman İnformasiya və Mədəniyyət Nazirliyi” və Gənclər idman inkişafı Fondu” sayılır.

İdman məşğələləri bu ölkədə yalnız məktəbin öz bazasında məhdudlaşmır. Üzgüçülük dərsləri şəhər hovuzunda, səmti müəyyənetmə idmanı üzrə məşğələlər isə şəhər parkında və ya şəhərdən kənar ərazilərdə və meşələrdə keçirilir. “İdman İnformasiya və Mədəniyyət Nazirliyi” 14 yaşa qədər uşaqların və 60 yaşdan yuxarı olan insanların hovuzlarından pulsuz istifadə etmələrini təşkil edir. Nazirlik həmçinin istedadlı uşaqların məşq proseslərini maliyyələşdirir və peşəkar idmana maddi dəstək göstərir. Bu da ölkə idmanında böyük yüksəlişə səbəb olur.

Ümumtəhsil məktəblərində 1500 saat dərsdənkənar bədən tərbiyəsi dərslərinin maliyyələşdirilməsi məqsədi ilə nazirlik “Məktəbin idman məşqləri ” proqramı çərçivəsində hər məktəbin iştirakçısına illik 21 min funt sterlinq maliyyə vəsaiti ayırır.



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

Dövlətdən maliyyə dəstəyi ilə lotoreya oyunlarından 480 milyon funt sterlinq məbləğində vəsaiti alan "ingiltərə idmanı" Olimpiya Hərəkatının inkişafına da investisiya qoyur.

Dövlət maliyyələşdirilməsindən başqa, idmana maliyyə dəstəyi qeyri-hökümət, kommersiya təşkilatları tərəfindən də göstərilir. Məsələn: 2008-ci ildə bu ölkə 2008-Pekin, 2012-London, 2016-Rio Olimpiya Oyunlarında iştirak etmələri üçün lazım olan 1.8 milyon funt sterlinqmaliyyə vasitəsinin toplanmasında 90 kommersiya şirkəti iştirak etmişdi.

İspaniyanın idman sahəsi dövlət və özəl sektorun əməkdaşlığı əsasında bazalaşır. Burada işlər elə planlaşdırılıb ki,onlar lazımi vəsaitlərindən düzgün istifadə edə bilirlər.

Azərbaycanda bədən tərbiyəsi və idman pul gətirməyən, yəni qeyri-istehsal sahəsinə aiddir. Buna görə də dövlət bu sahəni əsasən öz üzərinə götürmüşdür. Hamımıza məlumdur ki, şagirdlər, tələbələr və istərsə də fəhlələr bu sahədən pul əldə etmirlər. Bunu nəzərə alan dövlətimiz gələcək dövlət quruculuğu və inkişafı üçün bu günkü yeniyetmə, gənclər və fəhlələrin sağlamlığı üçün kifayət qədər ümumi mədəniyyət fonduna vəsait ayırır. Buradan bədən tərbiyəsi idmana rüblər üzrə vəsait ayrılır və bu vəsait idman tədbirlərinə sərf olunur.[1, s.232-233]

Ölkəmizdə bədən tərbiyəsi və idmanın maliyyələşdirilməsi müxtəlif mənbələr hesabına yerinə yetirilir. Dövlət büdcəsinə gəldikdə isə burada ödənilən maliyyə vəsaiti istifadə olunmasa həmin il üçün sonunda geri qaytarılır.

Ölkəmizdə bəzi sahibkarlarbeynəlxalq təcrübədən istifadə edərək ayrı-ayrı yaşayış məskənlərində fəaliyyət göstərən idman qurğularını kirayə vermək və ya pullu qruplar açmaqla xidmət göstərir.

Əvvəllər, yəni müstəqilliyimizə kimi ölkəmizdə bu sahəyə 10 milyon manat pul vəsaiti sərf olunurdu. Lakin müstəqilliyimizi qazandıqdan sonra 1998-ci illərdə idmana 700 min manat ayrılırdısa, 2000-ci ildə 12,7 milyard manata qədər artırılmışdır. 2005-2007-ci illərdə isə 1milyon 628min 434 manat idman tədbirlərinə vəsait sərf edilmişdir (denaminasiya).

Son illərdə"Bakı-2015" Birinci Avropa Oyunları və"Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında isə bu daha böyük rəqəmləri əhatə edir.

Dövlətə ziyan gəlməməsi üçün bədən tərbiyəsi və idman təşkilatları xarici ölkələrin təcrübələrindən istifadə etməsi məsləhət olardı.

Bədən tərbiyəsi və idmanın maliyyələşdirilməsi mənbələri çoxlu sayda amillərdən asılıdır. Tədqiqat işində bu amillər qarşılıqlı şəkildə təhlil olunaraq vergi, mühasibat uçotu, sığorta, banklar, gömrük və s. iqtisadi mexanizmlər sistem halında araşdırılmış və bunların əsasında aşağıdakı təkliflər verilmişdir:

1.Bazar iqtisadiyyatı şəraitində bədən tərbiyəsi və idman sahəsinin maliyyələşdirilməsinin dövlət büdcəsindən asılılığını azaltmaq üçün bu sahədə sahibkarlığa, biznesə münbit şərait yaradılmalıdır;[3, səh.181-182]

2.Regionlarda yerli büdcələrdən bədən tərbiyəsi və idman daha çox maliyyə vəsaiti cəlb edərək, xüsusən bələdiyyələrin bu sahənin maliyyələşdiril¬mə¬sində rolu və inkişafı araşdırılmalıdır;

3.Bədən tərbiyəsi və idman sahəsində sahibkarlıq fəaliyyəti göstərən hüquqi və fiziki şəxslər üçün vergiləri sadələşdirmək, ödəmə mexanizmini asanlaş¬dırmaq və vergi dərəcələrini azaltmaq üçün qanunvericilikdə müəyyən dəyişikliklər edilməlidir;

4.Müasir bazar iqtisadiyyatının qanunlarına uyğun olaraq hüquqi şəxs qismində maliyyə-təsərrüfat fəaliyyəti göstərən bədən tərbiyəsi və



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

idman təşkilatları "diversifikasiya", yəni şaxələndirmə metodunu rəhbər tutaraq qanunvericiliyə uyğun şəkildə başqa sahələrə, bank, mərc oyunları, lotoreya və s. sahələrə də nüfuz etməlidir.

5.10 yaşa qədər uşaqların və 65 yaşdan yuxarı Azərbaycan vətəndaşlarının hovuzlardan və digər idman qurğularından pulsuz istifadə etmələrinə şərait yaratmaq məqsədə uyğun olardı.

**Ədəbiyyatlar:**

1. A.Ə.Əliyev, Ə.S.Qasımov, K.Z.Bacarani "Bədən Tərbiyəsi və idmanın idarə edilməsi", dərslik, Bakı, 2014
2. A.Ə.Əliyev "İdman hərəkatının idarə edilməsinin (menecmentin) elmi əsasları", dərslik, Bakı, 2014
3. F.F.Mehbalıyev, V.V.İsrafilov, S.F.Əliyev "İdman və Turizmin sosial-iqtisadi əsasları və turist bazaları", elmi monoqrafiya, Bakı, 2016
4. F.F.Mehbalıyev, V.V.İsrafilov "Bədən tərbiyəsi və idmanın iqtisadiyyatı və marketinq", dərs vəsaiti, Bakı, 2010
5. Azərbaycan Respublikasının " Bədən tərbiyəsi və idman haqqında Qanunu" Bakı,2009.
6. F.F.Mehbalıyev "Bədən tərbiyəsi və idman sahəsində əməyin və məşğulluğun spesifik xüsusiyyətləri", məqalə, Azərb.DBTİA-nın elmi məcmuəsi konfransın tezisləri, Bakı, 2008



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.